# Kubaçı silahlarının dekor xüsusiyyətləri

Kubaçı soyuq silahları özünün dekorlarının xüsusi emalı ilə fərqlənir. Onun gümüş detallarının bəzədilməsində oyma, həkk etmə, gümüş üzərində dayaz hamar mina texnikasından və nəhayət ən çətin və bahalı üsul olan hamar mina ilə dərin oyma texnikasından geniş istifadə olunurdu. Bu texnika adətən bütün boş sahənin nöqtəvari naxışlanması ilə tamamlanırdı. Bunu kəsmə kimi də xarakterizə etmək olar (lazım olan naxışı əldə etmək üçün naxışda kənarda qalan bütöv metal hissələr və ya əksinə naxış olan hissələr kəsib götürülür, fon isə yerində qalırdı). Bütün bu cürbəcür silah bəzəmə üsulları qızıl suyuna salınma ilə (qızıl suyuna ya naxış, ya da ki, fon, yaxud da qaraldılmış yerlərdən başqa bütün sahə) müşayət olunurdu. Kubaçı silah ustaları həmçinin qızıl ilə (bəzən də gümüş) dəmir və ya polad üzərində çərtmə və sümük, buynuz dəstələrini inkrustasiya ilə bəzəmək və qızıl, gümüş ilə naxışlama bacarıqları ilə məşhur idilər. Sümük üzərində inkrustasiya edilmə materialın zəifliyinə görə ustadan böyük bacarıq tələb edirdi. Bu halda daha çox moş sümüyünə üstünlük verilirdi, belə ki, fil dişi ilə müqayisədə o daha bərk və ağdır. Qızıl və gümüş çapmalar bıçaqların və dəstəklərin tiyə və ya ləvazimatlarında edilirdi. Onunla yalnız ornament deyil, həm də yazılar (Qurandan ayələr, ustanın və silahın sahibinin adı, hazırlanma tarixi və s.) həkk edilirdi. Qeyd etmək lazımdır ki, Qafqaz soyuq silahlarının çiyin kəmərləri (portepeyaları) həmçinin Qafqaz yığılma kəmərinə oxşar dəmir üzərində qızılla naxış çapılmış minalı gümüş plastinlərlə bəzədilirdi. Şəbəkələri nazik metal tellərindən hörmə ilə mina və bəzək texnikası kubaçılarda XIX əsrin ortalarında öz təşəkkülünü tapmışdır. Bu texnika çox cüzi şəkildə soyuq silahların bəzəyində tətbiq olunurdu. Öz xarakterinə görə bitki mənşəli olan kubaçı ornamentləri bir neçə növə bölünürdü. Onlardan biri simmetrik – «Tutta», yəni, budaqdır. Bu yalnız ən mahir ustaların yerinə yetirdiyi ən çətin kubaçı kompozisiyası idi. Mərkəzdə hər iki tərəfə simmetrik şəkildə buruqlu, güllü və yarpaqlı mil qoyulmuşdur. Digəri – assimmetrik «Marxaray» yəni, kolluqdur. Burada eyni dərəcəli və getdikcə bir-birinə qarışan xətlər tabe olmamaqla bir buruqdan ayrılır. Çox zaman bu xətlər və ayrılmalar böyük dalğalı, bəzən də qatışan xətlər əmələ gətirirlər. Marxaray milləri və ayrılmaları həmçinin bir mərkəzdən ətrafa səpələnə bilərlər. «Marxaray»ın bu xətləri «Tutta»da olduğu kimi cürbəcür formalı buruqlarla, güllərlə, yarpaqlarla örtülmüş olur. «Tutta» və «Marxaray» kompozisiyaları ən qədim kubaçı ornamentlərindəndir. XVII əsrin axırları və XVIII əsrin əvvələrindən başlayaraq Rusiya ilə ticarətin inkişafı və Qafqazın Rusiya ilə mədəni əlaqələrinin təsirindən Kubaçıda ornamentin növü – «moskov-naxış» yəni Moskva rəsmi yaranır. Bu naxış güllər və yarpaqlarla sıx örtülmüş, qeyri-simmetrik bitki və ya budaq formasına malikdir. Bir qədər sonra isə rus təsirinin nəticəsində Kubaçıda kifayət qədər nadir rast gəlinən araları güllərlə doldurulmuş kəsişən xətli tor formasında olan «sita» (rus sözü – «sito», yəni «ələk») naxışı yaranır. Kubaçı silah ustaları əsasən silah bəzəyənlər idilər. Xəncərlərin, qılıncların və s. tiyələrini onlar üçün qonşu Amuzgi aulunda hazırlayırdılar. Amuzgi dənizçiləri tiyələri bütöv polad (ən ucuz növ) şəklində, həm də dəmir özəkli polad formasında düzəldirlər. Belə tiyələrin hazırlanması prosesi aşağıdakı kimidir: paz şəkilli dəmir özəyi polad zolaqla tip-tip (qabırğalı) şəkildə dolayıb, onunla qaynaq edirlər. Daban tərəfdən dəmirin bir hissəsini dəstəyin əsasını düzəltmək üçün çəkib çıxardırlar. Daha sonra dəmirin bir hissəsini poladla birgə xəncərin və ya qılıncın tiyəsinin lazımi forma alması üçün zindanda döyürlər. Bundan sonra tiyə taxta tirə bərkidilir, üzərində bərk kəsici ilə çəkinin yüngülləşdirilməsi üçün yarıqlar açılır. Bundan sonra tiyəni polad rəndəyə oxşar alətlə yonub daşla hamarlayırlar. Nəhayət tiyəni möhkəmlədirlər, itiləyirlər, parlaxlayırlar. Bundan sonra o hazır olmuş sayılır. Amuzgi dəmirçiləri bacarırdılar. Bu poladı bizim ədəbiyyatda səhvən Bulat poladı adlandırırdılar. Qafqazda xəncər ustası Bazlayın (XIX əsr) «qurd» və «qurda» damğalı məmulatlar şöhrət qazanmışdır. Gürcüstanda Georq Parunsuzarın (XIX əsrin I yarısı), Dağıstanda xəncər ustaları Osmanın, Məhəmmədin, İsmayılın, Həsənin və s. (XIX əsrin axırı – XX əsrin əvvəlləri) işləri məşhur idi. Həmçinin Şamaxı və Lahıc silahı çox böyük şöhrət qazanmışdır.

Poladın bədii-texniki xüsusiyyətləri, qaynaqlanmış poladın hazırlanması ilk öncə soyuq silahın tiyəsinə yüksək özlülük (qatılıq), elastiklik və eyni zamanda tiyənin maksimal dərəcədə möhkəmliyi məqsədi güdürdü. Qaynaq poladın istehsalı dəmir və polad zolaqların bir-birini əvəz etməklə təkrar üst-üstə qoyulmasıdır. Zindanda zamanı qatların paralelliyi pozulur və turşularla aşılamadan sonra metal üzərində dalğavari rəsmlər qoyur. Belə qat-qat naxış alınır. Əks istiqamətdə burulmuş və qaynaqlanmış bir neçə belə zolaq naxışın başqa növünü – burulmuş zolaqlardan naxış növünü yaradır. Burulmuş zolaqlardan ibarət qaynaqlanmış poladın tikəsini xüsusi ştampın və hər hansı bir uyğun gələn alətin təsiri ilə emal etmək olar. Bu halda aşağı qatların açılması nəticəsində qat-qat struktur dağılır və «Buket naxışı» alınır. Dağıstanın Amurgi silah ustaları naxışlı və ya qaynaq poladın istehsalının bu növünü çox yaxşı bilirdilər. Burada naxışlı poladın bütöv tikəsindən, həmçinin naxışlı poladın zolaqlarını dəmir özəkli yarıqları boyu birləşdirməklə tiyələr hazırlanır.

Xəncər Qafqaz dağlısının gecə-gündüz ayrılmadığı bir silah idi. Xəncərlə o işləyir, yatır, əylənirdi. Xəncəri yalnız dava-döyüş məqsədi ilə çəkirdilər, başqa vaxt isə xəncər qınında, sahibinin belində olurdu. XIX əsrin ikinci yarısındakı xəncərlərin əksəriyyətinin tiyələrinin forması enli olurdu. Bu onun hərbi təyinatına dəlalət edirdi. Sonralar nazik tiyəli xəncərlər də istehsal olunmağa başladı. Bu cür xəncərlərə həm də kişi paltarının bir elementi kimi, onun əsas bəzəyi kimi baxılırdı. Yaxşı xəncər eyni zamanda həm dəmir mismarı, həm də ipək dəsmalı kəsməli idi. Yüksək keyfiyyətin əsas göstəricisi tiyədə ustanın damğası sayılırdı. Yerli ustalar tiyədə öz adlarını ərəb, sonralar isə rus dilində həkk edirdilər. Həmçinin Avropa ustalarının da damğası yüksək qiymətləndirilirdi. Sözsüz ki, gözəlliyi xəncərə onun dəstəyinin və qınının naxışları, bəzəyi verirdi. Qafqaz xəncərlərinin dəstəyi qara buynuzdan və yaxud fil dişindən, yaxud da bu materialların qarışığından hazırlanırdı. Bu cür dəstəklər bayram silahlarında olurdu. Həmçinin bütünlüklə gümüşlə örtülmüş dəstəklər də düzəldilirdi. Dəstəklərin gümüş səthi zərgər sənətinin üsullarından istifadə olunmaqla vurulan naxışlarla bəzədilirdi. Əsrlər boyu əsasını bitki mənşəli naxışların təşkil etdiyi Dağıstan naxışlarının özünəməxsus üslubu yaranmışdır. Qafqazda silah bəzəyi sahəsində liderlik lak aullarına, xüsusi ilə də məşhur qızılzərgərliyi mərkəzi olan Kubaçı auluna məxsus idi. Ornamentlər arasında tez-tez müxtəlif dillərdə, xüsusi ilə də ərəb dilində Quran surələri həkk edilmiş yazılara, həmçinin Şərq müdriklərinə məxsus və silah yiyəsinə ünvanlanmış «Ölümdən qorxma və cəsarətli ol» yazısına rast gəlinir. Mətnlər bəzən müsəlman tarixi ilə üst-üstə düşürdü.

***Elnur Aşurbəyli***